**20 Yanvar faciəsinin 9-cu ildönümünün keçirilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycana qarşı edilmiş hərbi təcavüz nəticəsində baş vermiş Qanlı Yanvar faciəsinin doqquzuncu ildönümü münasibəti ilə**qərara alıram:**

20 Yanvar faciəsinin doqquzuncu ildönümü ilə bağlı tədbirlərin hazırlanması və keçirilməsi üçün aşağıdakı tərkibdə hökumət komissiyası yaradılsın:

**Komissiyanın sədri:**

Ramiz **Mehdiyev** - Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının rəhbəri

**Komissiyanın üzvləri:**

Əli **Həsənov** - Azərbaycan Respublikası Baş nazirinin müavini, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri

İzzət **Rüstəmov** - Azərbaycan Respublikası Baş nazirinin müavini səlahiyyətlərini icra edən

Rəfael **Allahverdiyev** - Bakı şəhər İcra Hakimiyyətinin başçısı

Fatma **Abdullazadə** - Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının Humanitar siyasət şöbəsinin müdiri

Yusif **Hümbətov** - Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının Ərazi idarəetmə orqanları ilə iş şöbəsinin müdiri

Əli **Həsənov** - Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının İctimai-siyasi şöbəsinin müdiri

Səfər **Əbiyev** - Azərbaycan Respublikasının müdafiə naziri

Ramil **Usubov** - Azərbaycan Respublikasının daxili işlər naziri

Fikrət **Yusifov** - Azərbaycan Respublikasının maliyyə naziri

Əli **Nağıyev** - Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri

Misir **Mərdanov** - Azərbaycan Respublikasının təhsil naziri

Polad **Bülbüloğlu** - Azərbaycan Respublikasının mədəniyyət naziri

Nizami **Xudiyev** - Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Şirkətinin sədri

Allahşükür **Paşazadə** - Qafqaz Müsəlmanları İdarəsinin sədri

Səttar **Mehbalıyev** -Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri

**Azərbaycan Respublikasının Prezidenti HEYDƏR ƏLİYEV**

Bakı şəhəri, 8 yanvar 1999-cu il
№ 56